**UOT: 719.**

**Günel Seyidəhmədli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: gseyidehmedli@gmail.com**

# PİR ÖMƏR SULTAN ZİYARƏTGAHI VƏ TÜRBƏNİN ƏTRAFINDA YERLƏŞƏN QƏBİRÜSTÜ ABİDƏLƏRİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**: Məqalə, Azərbaycanın Şamaxı rayonun qədim və orta əsr mədəni mərkəzlərindən biri olan Avaxıl kəndində yerləşən, Orta əsrlər dövründə Azərbaycanın dini-fəlsəfi və estetik həyatında təşəkkül tapan, xəlvətilik sufi məktəbinin banisi Şeyx Əkmələddin oğlu Əbu Abdulla Siracəddin Ömər Avaxılinin türbəsi və onun ətrafında yerləşən qəbirüstü abidələrin bədii xüsusiyyətlərinin tədqiqinə həsr olunmuşdur.

**Açar sözlər**: türbə, qəbirüstü abidə, Pir Ömər Avaxıli, sufilik, xəlvətilik.

**Giriş**. Avaxıl kəndi haqqında.

Şamaxının qədim və orta əsr mədəni mərkəzlərindən biri olan Avaxıl kəndi Şamaxıdan 32 km uzaqlıqda, dəniz səviyyəsindən 1,386 metr hündürlükdə yerləşən Qabandağ silsiləsinin ətəyində Yekəqurşaqlı və Hallacı aşırımları ilə əhatələnmişdir. Avaxıl kəndinin adı “hava xor” və ya “havaxur” (burada farsca “xur” və ya “xorun” – “günəş”, “gün” mənasındadır) sözünün dəyişilmiş formasıdır ki, hava axan, havası bol olan yer, günəşli hava və s. mənada işlədilir (2; s. 64).

Kəndin maddi-mədəni irsi bu günə kimi hələ də tam öyrənilib, tədqiq edilməmişdir. Bu baxımdan Avaxılda yerləşən, orta əsrlərə aid edilən Ömər Soltan Xəlvəti Avaxılı, Əhməd Rəvanı qəbiristanlıqları, məscidlər, o cümlədən Pir Qulu, Murad piri, Feyzulla piri, Alçalı pir, Pir Hüseyn, Pir Hacı, Dünya nənə və s. ziyarətgahlar kimi maddi-mədəni irs abidələrinin adlarını qeyd edə bilərik. Kənd ərazisindən tapılan saxsı qırıqları, saxsı kəhrizlər və başqa maraq doğuran tapıntılar burada tarixi-arxeoloji tədqiqatlar aparılmasını gərəkdirir.

**Pir Ömər Sultan kimdir?**

Orta əsrlər dövründə Azərbaycanın dini-fəlsəfi, estetik həyatında təşəkkül tapan məktəblərdən biri də xəlvətilik sufi məktəbidir. Xəlvətilik sufi məktəbinin

tarixini araşdıran tədqiqatçılar hesab edirlər ki, bu məktəb XIV əsrin ortalarından başlayaraq Azərbaycan ərazisində, konkret olaraq Şirvan regionunda yayılmışdır. Onun banisi isə tarixi mənbələrdə də göstərildiyi kimi, Şeyx Əkmələddin oğlu Əbu Abdulla Siracəddin Ömər Avaxılı olub. O, ilk təhsilini Xarəzmdə əmisi Əxi Məhəmməd Xəlvətinin yanında almış, daha sonra əmisi ilə birgə Heriyə gəlmiş, ölümündən sonra onun yerinə səccadəyə oturmuş, Xoy, Misir və Hicazda təlim keçib, elm öyrənmişdir. Bir müddət sonra Sultan Üveysin dəvəti ilə Təbrizə gəlmiş və 2020-ci ildə aparılmış fundamental tədqiqatlara qədər onun bir versiyaya görə 1349-cu ildə, digər bir versiyaya görə isə 1397-ci ildə vəfat etdiyi və qəbrinin Təbriz yaxınlığında, Mir Əli türbəsi adlanan yerdə olduğu bildirilirdi.

Xəlvətilik sufi məktəbinin bir çox təməl prinsipləri məhz Pir Ömərin adı ilə bağlıdır. Onun xəlvətilik təriqətində sahib olduğu mövqe böyükdür. Təriqətin əlaməti sayılan tacın (papaq, əmmamə) forması Pir Ömər Sultan tərəfindən müəyyənləşdirilmişdir. Şeyxin xəlvət məsələsində göstərdiyi israr xəlvətilikdə xəlvətin ən mühüm cəhətlərindən biri, bəlkə də birincisi halına gəlməsinə səbəb olmuşdur (6; s.64). Beləliklə, təriqətin adı Xəlvətilik kimi müəyyənləşdirilmişdir.

Məqsədi kamil insan yetişdirməkdən ibarət olan xəlvətilik sufi məktəbi hazırda Bakıda türbəsi olan Seyid Yəhya Şirvaninin (Bakuvi) səyi nəticəsində Təbrizə və İstanbula yayılıb, az sonra dünyanın bir çox yerlərində şöbələri açılıb. Seyid Yəhya Şirvaninin təkmilləşdirib inkişaf etdirdiyi xəlvətilik təriqəti İslamda ən geniş yayılmış sufi təriqətlərindən olub (14).

Zahidiliyin digər qolu olan səfəvilik təriqəti daha sonralar xəlvəti tərk edərək xəlvəti üstün tutmuşdur. Yəni xəlvətiliyin əksinə olaraq, xalqla birlikdə olmağa üstünlük vermiş, xəlvətiliyə çevrilmişdir.

Pir Ömərin nisbəsinə (yer mənsubiyyətinə) dair ən qədim mənbə yerli müəllif olan Yusif Müskürinin “Silsilətül-Uyun” əsəridir. Xəlvətilik sufi məktəbinin tanınan nümayəndəsi Seyid Yəhya Şirvaninin tələbəsi olması Yusif Müskürinin Pir Ömər haqqında daha dəqiq məlumata malik olduğuna əsas verir (8; s. 203-217). Əsərdə Pir Ömərdən sonra adları çəkilən şeyxlər Şamaxının digər kəndlərindən olsa da (məsələn, Məlhəm kəndi) başqa mənbələrdə buna rast gəlinmir.

Beləliklə, Şamaxının tarixi kəndlərindən olan Avaxılda XIV əsrin ortalarında Pir Ömərin əsasını qoyduğu və hazırda dünyanın ən çox şöbələşən sufi məktəbi hesab olunan xəlvətilik meydana çıxıb. Tanınmış türk tarixçi və filosof Mehmet Rıhtımın 2006-cı ildə nəşr edilən "Seyid Yəhya Bakuvi və Xəlvətilik" əsəri bu baxımdan dəyərli mənbədir.

**Pir Ömər Sultan türbəsi.**

Avaxıl kəndində yerləşən "Pir Ömər Sultan" ziyarətgahı tədqiqatlara qədər sadəcə müqəddəs bir ocaq kimi məşhur idi. 2020-ci ildə mart ayında Heydər Əliyev Fondunun dəstəyi və xüsusi layihəsi əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun professoru Qafar Cəbiyev və onun rəhbərlik etdiyi arxeoloji ekspedisiyası burada arxeoloji tədqiqatlara başlamış, nəticədə Azərbaycan sufiliyinin önəmli qolu olan xəlvətilik sufi məktəbinin banisi Pir Ömər Avaxılı Şirvaninin türbəsini aşkar etmişdir.

Aşkar olunmuş türbənin özül qalıqları, qiymətli kitabələr, eləcə də Şeyx Ömər Avaxılinin qəbri bu müqəddəs ocaq və Pir Ömər Sultanın özü haqqında bir çox fərziyyələrə son qoymuşdur. Professor Qafar Cəbiyev qazıntı haqqında yazır: "133 kvadratmetr sahədə aparılan ilkin arxeoloji tədqiqatlar zamanı XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən artefaktlar aşkar olunmuşdur. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilib. Türbənin üstü tağvari formada olan giriş qapısı cənub tərəfdəndir. Türbənin içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki qəbir kamerası, eləcə də içərisində "La İlahə İlləllah" kəlmələri yazılmış daş kitabənin bir parçası, habelə üzərində Şirvan memarlıq məktəbi üçün səciyyəvi olan daş üzərində oyma üsulu ilə işlənmiş şəbəkə, xəlvətilik təlimi ilə bağlı ritualların icrası zamanı istifadə olunmuş XIV əsrə aid şirli və şirsiz keramika nümunələri və bir neçə sikkə aşkarlanıb. Türbə içərisində aşkar olunan müxtəlif tarixi dövrlərə aid pullar, üçkünc və dördkünc formada hazırlanmış dualar əsrlər boyu insanların Pir Ömər ziyarətgahına olan inamından xəbər verir (4; s. 224-230).

Həmçinin qeyd etmək lazımdır ki, 5x5 metr ölçüdə olan türbə yonulmuş çay və qaya daşları ilə hörülmüş və şimal divarlarının (nisbətən yaxşı qalan hissəsində) hündürlüyü 2,1 metr, qalınlığı 0,9 metrə çatmışdır. Türbənin ən önəmli tapıntılarından biri qəbir kamerasıdır. Cənub tərəfi boyunca şərq-qərb istiqamətində uzanan qəbir kamerasının eni 0,9 metr, uzunluğu isə 2,1 metrə qədər olub,

üzəri iri ölçülü qaya parçaları ilə örtülmüşdür. Qəbirdən şimal tərəfdə eni 1,9 metr, uzunluğu isə 3,2 metr olan döşəmənin şimal kənarı boyunca ziyarətçilərin oturub zikr etməsi üçün xüsusi kətil hörülmüşdür. Türbənin cənub divarının mərkəzində eni 0,5 metr, salamat qalmış hissədə hündürlüyü 0,8 metr olan tağvari taxçanın çöl tərəfində, cənub divarı qarşısında aşkar edilən, səlcuq zənciri ilə haşiyələnən mehrab təsvirli xatirə daşı da məhz Pir Ömərin məzarına aiddir.

Türbənin qərb divarı qoz ağacının çürüməkdə olan koğuşu ilə əhatələnir. Zaman-zaman ağacın kökləri türbənin qərb və şimal divarlarını sıxaraq xeyli dərəcədə dağıdıb. Tədqiqat zamanı Pir Ömərin məhz belə bir ağacın koğuşunda zikr etməsi hadisəsi ilə bağlı geniş yayılmış rəvayətlərin elmi dəyərini nəzərə alaraq ekspedisiya heyəti ağaca toxunmayıb. Bu səbəbdən də türbənin qərb divarı tam olaraq açılmayıb. Oradan yalnız üzü üstə düşmüş vəziyyətdə olan türbə kitabəsini götürmək mümkün olub. Sadə süls xətti ilə yazılmış ərəbdilli kitabədə Azərbaycan türkcəsində olan ifadələr də yer alıb.

Tədqiqat zamanı türbə içərisi və ətrafından xəlvətilik sufi məktəbinə, onun banisi Pir Ömərə aid elmi cəhətdən çox mühüm əhəmiyyət kəsb edən artefaktlar üzə çıxmışdır. Həmin tapıntılar içərisində bilavasitə Pir Ömərə aid qəbir və türbə kitabəsi xüsusilə maraqlıdır. Türbə kitabəsindən bəlli olur ki, Pir Ömər 1409-cu ilin iyul ayında vəfat etmişdir. Kitabədə Pir Ömərin xəlvətilik sufi məktəbinin banisi və təriqət sahiblərinin əzizi olduğu qeyd olunub. Kitabədə həmçinin Pir Ömərə "şeyx", "zahid", "abid" kimi epitetlərlə xitab olunub. Maraqlıdır ki, sadə süls xətti ilə yazılmış ərəbdilli kitabədə Azərbaycan türkcəsində olan ifadələr də yer alıb.

Epiqraf Həbibə Əliyeva kitabənin tərcüməsini aşağıdakı kimi qeyd etmişdir (foto 5):

١ . هذا المشهد المبارك الشيخ الزاهد العابد قدس اصحاب الطريقه

٢. شيخ[پير]عمر[دن] قدس الله روحه العزيز في تاريخ ربيع الاول

٣. سنة اثنا عشر و ثمانمائه

**Kitabenin Tercümesi: "Bu mübarek meşhed* (makbere) Şeyh, Zahid**, Abid***, tarikat**** sahiplerinin (ehlinin) mürşidi Şeyh Pir Ömer'indir. Allah aziz ruhunu mukaddes eylesin. Tarih 812 yılı Rebiülevvel ayı". (H. 812 Rebiülevvel ayı=M. 1409 Haziran ayı).**

Məlum olduğu kimi, ilkin olaraq Avaxılda təşəkkül tapan, Şirvanda və bütün Azərbaycanda formalaşma mərhələsi keçən xəlvətilik sufi təlimi daha sonra

Avropa, Asiya və Afrikanın hüdudları daxilində də geniş yayılmışdır. Orta əsr Azərbaycan multikultural dəyərlərinin bariz nümunəsi olaraq təşəkkül və formalaşma dönəmində Şirvanşahlar dövləti tərəfindən dəstək alan xəlvətilik sufi məktəbini daha sonra Teymuri, Qaraqoyunlu, Ağqoyunlu, Osmanlı, Misir Məmlükləri kimi dövrün böyük dövlətləri də himayə ediblər. Göründüyü kimi, xəlvətilik sufi təlimi müasir dünyamızın geniş bir coğrafi arealını əhatə edir və onun tərəfdarları bu gün də qalmaqdadır (10).

**Pir Ömər Sultan ziyarətgahının yaxınlığında yerləşən qəbirüstü abidələrin kitabələri haqqında.**

Pir Ömər Sultan ziyarətgahının ətrafında öz dövründən etibarən XIX əsrədək mövcud olan qəbiristanlıq yerləşir. Professor Qafar Cəbiyev fikrincə türbənin şərq tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər. Qəbirlərdən birinin kitabəsində ərəb əlifbası ilə "Şeyx Cəlil min övladı Sultan Bəyazid", onun yanındakı digər qəbir daşında isə "Allahvermiş Şeyx oğlu Cəlil" sözləri yazılıb. Birinci qəbir 1819-cu ilə, ikinci qəbir isə 1809-cu ilə aiddir. Bu o deməkdir ki, oğul Allahvermiş atası Şeyx Cəlildən 10 il tez dünyasını dəyişib. Tarixi mənbələrdən məlum olduğu kimi, Sultan Bəyazid Pir Ömərin xəlifələrindən biri olan Bəyazid Piranidir. Piran məhəlləsinin Şamaxının qədim məhəllələrindən biri olduğu məlumdur. Deməli, Yusif Müşkirinin əsərində adıçəkilən Bəyazid Pirani məhz Şamaxı şəhərinin Piran məhəlləsini təmsil edən Bəyaziddir. Onun nəslindən olan Şeyx Cəlil isə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində yaşamış xəlvətilik sufi məktəbinin davamçılarındandır. Bu isə XIV əsrin ortalarında təşəkkül tapan Avaxıl xəlvətilik sufi xanəgahının XIX əsrin əvvəlinədək davamlı fəaliyyət göstərdiyini sübut edir.

Qəbiristanlıqdan tapılmış digər qəbrin kitabəsində isə Qurani-Kərimin "Ğafir" surəsinin 16-cı ayəsi – "Bu gün hakimiyyət kimindir? – Vahid və Qəhhar olan Allahın" – sözləri həkk olunmuşdur.

**Qəbirüstü abidələrin texniki və izahlı təhlili.**

XVIII-XIX əsrin sonlarından başlayaraq yerli sənətkarlar qəbir daşlarının forma və bədii tərtibatını fərdi üslublarla yaradırdılar ki, bu da daşyonma sənətinin bölgələr üzrə inkişaf prinsiplərini müəyyənləşdirirdi. XVIII-XIX əsrin birinci yarısında Azərbaycanda qəbir daşlarının üzərində ən zərif oyma işlərinə rast

gəlinən bölgələrindən biri də Şamaxıdır. Bu əsrlərdə qəbir daşlarının bəzəkləri bir çox hallarda ənənəvi xarakter daşısa da, onların tərtibatında çoxlu yeniliklər mövcuddur.

Bu dövrdə dekorativ-tətbiqi sənət nümunələrinə aid motivlərin məzar daşları üzərində də tətbiqi geniş yayılmağa başlamışdır. Akademik Rasim Əfəndi qeyd edir ki, "XVIII yüzillikdə Azərbaycanda daş üzərində ən zərif oyma işlərinə biz məzar daşlarında rast gəlirik. Hazırda Abşeron, Şamaxı, Quba, Şəki, Ağdam, Gəncə, Qazax, Tovuz və s. yerlərdə bədii xüsusiyyət daşıyan bir çox məzar daşları vardır. Bu əsrlərdə məzar daşlarının bəzəkləri bir çox hallarda ənənəvi xarakter daşısa da, onların tərtibatında çoxlu yeniliklər də özünü büruzə verməyə başlayırdı. Məzar daşlarının tərtibatında müxtəlif növlü ornament ünsürlərindən, oyma ilə yanaşı boyadan və qeyri-qiymətli daşlardan (mərmər, qranit və s.) geniş istifadə edilməsi bu əsrin üslub xüsusiyyətlərindən biri idi. Bu əsr məzar daşlarının bəzəkləri içərisində ən çox yayılanları fərdi xarakter daşıyan rəsmlərdir. Bunlardan kişi məzar daşlarında xəncər, qılınc, tapança, tüfəng, at rəsmini, qadın məzar daşlarında isə güzgü, daraq, iynə-sap və s. məişət əşyalarından olan rəsmləri göstərmək olar. Bu əsrlərin məzar daşı bəzəklərində süjet xarakterli kompozisiyalara artıq rast gəlinmir" (5; s. 84).

XVIII-XIX əsrlərin birinci yarısında Avaxıl məzar daşlarının əsas xarakterik xüsusiyyəti onun bədii tərtibatında müxtəlif növlü ornamentlərin istifadə edilməsi idi. Abidələrdə məzmunundan asılı olmayaraq həndəsi, nəbati ornamentlərlə yanaşı müxtəlif məişət əşyaları və s. bəzəklərə rast gəlinir. Lokal xüsusiyyətlər məzar daşları bəzəklərində də nəzərə çarpmaqda idi. Yerli xüsusiyyətlər ilk növbədə iqlimdən, düzəldilən materialın keyfiyyətindən və bədii ənənəsindən irəli gəlirdi. Bu cəhətdən XVIII-XIX əsrlərdə Şamaxıda rast gəlinən məzar daşları öz forma və bədii tərtibatı ilə üzdən də olsa müstəqil xüsusiyyətlər daşıyır. Bu tipli məzar daşlarının bəzilərini nəzərdən keçirək.

Pir Ömər Sultanın türbəsinin ətrafında yerləşən qəbiristanlığın ərazisi kifayət qədər qədim tarixə malik olsa da (XIV-XV əsrlər) dövrümüzə yalnız XVIII-XIX əsrə aid 14 bədii əhəmiyyətə malik olan qəbirüstü abidə çatmışdır. Onların arasından bütöv şəkildə 2 ədəd həm başdaşı, həm sinədaşı, eləcə də 6 ədəd başdaşı sınmış, amma sinədaşı salamat olan, qalanı isə sinədaşısız başdaş qəbir nümunələri dövrümüzə çatmışdır. Sinədaşısız olan başdaşlarına iki vəziyyətdə - 1) yerin üzərində texnogen eroziya zamanı sağa və ya sola əyilmiş halda,

2) başdaşının 1/3 hissəsi torpağa batmış halda rast gəlinir.

Məzarlıqda XV-XVII əsrlərə aid qəbirlər dövrümüzə çatmamışdır. Ümumiyyətlə, Şamaxı ərazisində XVII əsrə aid olan məzar daşları bədii tərtibatına görə zəngin ornamental, eyni zamanda nəfis xəttatlıq nümunələri ilə fərqlənir. Bu tip qəbirlərin əksəriyyəti ölçü və tərtibat baxımından eynilik təşkil edir və ya kiçik detallarla fərqlənir (7; s. 412-431).

Məsələn, 1 və 2 №-li qəbir daşlarının bədii tərtibatını nəzərdən keçirsək (şəkil 1, 2) hər ikisinin gül forması ilə bitən başdaşları və sənduqə tipli sinədaşının eyni məktəbə aid olduğunu görə bilərik. Birinci məzar daşı nəbati ornamentlər, sətirli kitabə və təsvir motivləri ilə zəngindir. İkinci məzar daşında isə epiqrafika və ornamentasiya ilə yanaşı bir-birinə yapışıq halqavari simvolik elementlərdən də istifadə olunub. Türbənin yanından aşkar olunmuş başdaşları isə üzərində qeyd olunan epitafiyası ilə öz dövrünün öyrənilməsində dəyərli mənbədir.

**Nəticə.**

Qeyd etmək lazımdır ki, bu dövrlər ərzində nəbati ornament motivləri və cürbəcür nəfis xətlərlə yazılmış kitabələrlə bəzədilmiş ən gözəl məzar daşları elə Şirvan ərazisində mövcud olmuşdur. Söhbəti gedən Pir Ömər Sultan Türbəsinin ətrafında XV əsrdən etibarən dəfn həyata keçirilsə də dövrümüzə XVIII-XIX əsrlərə aid qəbir nümunələri çatmışdır. XVIII əsrin məzar daşları bəzəklərinin əsas xarakterik xüsusiyyəti onun bədii tərtibatında müxtəlif növlü ornamentlərin istifadə edilməsi, həndəsi, nəbati ornamentlərlə yanaşı insan, heyvan və s. kimi təsvirlərin mövcudluğudur ki, biz bunları sözü gedən məzarlıqda görürük. Süjetli kompozisiya səhnələrinə isə artıq rast gəlinmir.

| Məzar daşlarının nümunələri | Başdaşı | Sinədaşı | Kitabədəki tarix | İcra baxımından aid olduğu məktəb | Foto |
|---|---|---|---|---|---|
| №1 | h-2,17sm eni-47sm qalın.-24sm | u-2,03 sm h-45sm eni-45 sm | Hicri t. 1255 | Şirvan-Abşeron | Şəkil 1 |
| №2 | h-1,80 sm eni-45 sm qalın.-22sm | - | Hicri t. 1234 | Şirvan-Abşeron | Şəkil 2 |
| №3 | h-38sm eni-35sm qalın.-12 sm | - | - | Şirvan-Abşeron | Şəkil 3 |
| №4 | h-35sm eni-34sm qalın.-10sm | - | - | Şirvan-Abşeron | Şəkil 4 |
| №5 | h-1,68sm eni-56sm qalın.-24sm | - | Miladi t. 1809 | Şirvan-Abşeron | |
| №6 | h-1,13sm eni-33sm qalın.-11sm | - | Miladi t. 1819 | Şirvan-Abşeron | |



**Şəkil 1**



**Şəkil 2**





Şəkil 3 Şəkil 4



Şəkil 5

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Milli Ensiklopediyası, 2 cild, Bakı, 2010, s. 280.

2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti", 1 cild, Bakı, "Şərq-Qərb", 2007, s. 64.

3. Bəndəliyev N. "Dağlıq Şirvanın toponimləri", Bakı, "Elm", s.27"

4. Cəbiyev Q. Avaxılda arxeoloji tədqiqatlar. Milli Azərbaycan Tarixi Muzeyi - 2020. Bakı: "Aspoliqraf", səh. 224-230

5. Əfəndiyev R. Azərbaycan incəsənəti. Bakı-1992, Səh 84.

6. Mehmet R. "Seyid Yəhya Bakuvi və Xəlvətilik". "Qismət Nəşr", Bakı. 2005

7. Seyidəhmədli G. Sündü kəndinin məzar daşları. II. Uluslararası Gelenelsel Türk Mezar Taşları" Sempozyumu, 22-25 avqust. Türkiyə-Ahlat-2019, səh. 412-431

8. Xəlili F, Xəlili Ş. Xəlvəti Mürşidi Yusif Müskürinin silsilənaməsi // Tarixi yerlər və abidələr. I Beynəlxalq Quba simpoziumu. 13-14 sentyabr-Quba. Səh 203-217

9. https://president.az/articles/38775

10.https://az.trend.az/azerbaijan/society/3255675.html

11.https://azertag.az/xeber/Avaxilda_ilk_defe_arxeoloji_tedqiqatlar_aparilir___REPORTAJ_VIDEO-1442709

12. https://science.gov.az/az/news/open/12499

13. https://sitat.news/pir-omer-sultan-foto

14.http://www.azerbaijan-news.az/view-92280/agac-oyugunda-zikr-eden-pir-omer-avaxili

15. http://moderator.az/news/331421.html

**Гюнель Сеидахмедли**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ СВЯТИЛИЩА ПИР ОМАР СУЛТАН И НАДГРОБНЫХ ПАМЯТНИКОВ, РАСПОЛОЖЕННЫХ ВОКРУГ ГРОБНИЦЫ

**Резюме:** Статья посвящена изучению могилы шейха Абдуллы Смедждаддина Омара Авахили, основателя суфийской школы, сформировавшейся в религиозно-философской и эстетической жизни Азербайджана в средние века, который находится в селе Авахил, одном из древнейших и средневековых культурных центров Шемахинского района Азербайджана.

**Ключевые слова**: гробница, надгробие, Пир Омар Авахили, суфизм.

**Gunel Seyidahmadli**

## ARTISTIC FEATURES OF PIR OMAR SULTAN SANCTUARY AND GRAVESTONE MONUMENTS LOCATED AROUND THE TOMB

**Summary**: The article is devoted to the study of the grave of Sheikh Abdullah Smedjaddin Omar Avakhili, the founder of the Sufi school, which was formed in the religious-philosophical and aesthetic life of Azerbaijan in the Middle Ages, which is located in the village of Avakhil, one of the most ancient and medieval cultural centers of the Shamakhi region of Azerbaijan.

**Key words**: tomb, headstone, Pir Omar Avahili, Sufism.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**